2024.- 8 fevral, № 27.- S.14.

RƏSMİ DÖVLƏT QƏZETİ AZƏRBAYCAN

# Gəncəlilər bu seçkilərdə də fəal oldular

Azərbaycanda daha bir siyasi kampaniya uğurla başa çatdı. Fevralın 7-də keçirilən növbədənkənar prezident seçkiləri onu göstərdi ki, xalqımız belə məsuliyyətli seçkilərdə özünün əsl iradəsini nümayiş etdirməyi bacarır. Seçkilərə hazırlıq, məntəqələrdə yaradılmış şərait, seçkilərin demokratik şəraitdə keçirilməsi təcrübəsi özünün müsbət nəticəsini verdi. Azərbaycan xalqı seçki məntəqələrinə gələrək öz vətəndaşlıq borcunu yerinə yetirdi. Hamının bir arzusu var idi ki, o da müstəqil Azərbaycanı daha etibarlı insana həvalə etmək.

Belə bir siyasi kampaniyada respublikamızın ikinci böyük şəhəri Gəncədə də seçicilər yüksək fəallıq nümayiş etdirdilər. Şəhərdə fəaliyyət göstərən 38 saylı Gəncə birinci, 39 saylı Gəncə ikinci, 40 saylı Gəncə üçüncü və 41 saylı Gəncə-Samux-Goranboy seçki dairələrini əhatə edən məntəqələrdə böyük canlanma hiss olunurdu. İnsanlar növbəyə dayanaraq qeydiyyatdan keçir, seçki bülletenləri alaraq istədiyi namizədə səs verir və müşahidəçilərin nəzarəti ilə seçki qutusuna atırdılar. 41 saylı Gəncə-Samux-Goranboy seçki dairəsinin 40 nömrəli orta məktəbdə yerləşən 17 saylı seçki məntəqəsində olarkən məntəqənin sədri İradə Səfərova ilə söhbət etdik. Dedi ki, seçicilərin bu seçkilərə necə önəm verdiyini siz də görürsünüz: "Hamı istəyir ki, ölkəmizin həyatı üçün önəmli olan bu seçkilərdə öz sözünü desin. Bu da təbiidir. Çünki biz qalib xalqıq. Ərazilərimiz 30 illik işğaldan azad edilmişdir. Artıq Azərbaycanın ərazi bütövlüyü tam şəkildə təmin edildikdən sonra ilk dəfə prezident seçkiləri keçiririk. Hamı istəyir ki, bu tarixi hadisədə iştirak etsin və ən layiqli namizədə səs versin".

Gəncədə prezident seçkilərinin mütəşəkkil keçdiyini 39 saylı Gəncə ikinci seçki dairəsinin 24, 25 və 31 saylı seçki məntəqələrində də gördük. Məntəqələr inşası yenicə başa çatmış 29 nömrəli məktəbdə yerləşir. Burada seçicilərin öz istəklərinə uyğun namizədə səs vermələri üçün hər cür şərait yaradılmışdır. Yenicə səs vermiş Saida Tağızadəyə yaxınlaşdıq.

- Torpaqlarımız işğaldan azad edildikdən sonra ilk dəfə keçirilən növbədənkənar prezident seçkilərində iştirak etməyimlə qürur duyuram. Mən səsimi ən layiqli namizədə verdim. Arzu edirəm ki, Qarabağda və Şərqi Zəngəzurda başlanan quruculuq işləri tezliklə başa çatsın, soydaşlarımız öz yurdlarına dönsünlər.

Şəhərdə fəaliyyət göstərən digər məntəqələrdə də olduq. Demək olar ki, hamısında böyük növbə var idi. İstər yaşlı nəslin nümayəndələri, istərsə də ilk dəfə səs verən seçicilər qəbul edilmiş prosedurdan keçərək növbə ilə səsvermə bülleteni alır, istədiyi namizədə səs verirdi. Bir sözlə, hamı çalışırdı ki, növbədənkənar prezident seçkilərində öz vətəndaşlıq borcunu yerinə yetirsin.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*







